# AZƏRBAYCAN RESPUBLİKASI ƏMƏK VƏ ƏHALİNİN SOSİAL MÜDAFİƏSİ NAZİRLİYİNİN TABELİYİNDƏ DÖVLƏT MƏŞĞULLUQ AGENTLİYİ İLƏ FONİBO MMC ARASINDA ƏMƏKDAŞLIQ HAQQINDA MEMORANDUM

**Bakı şəhəri** **"11" Maet 2021-ci il**

Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyi (bundan sonra – Agentlik) və Fonibo MMC *(bundan sonra Fonibo )* məşğulluq sahəsində əməkdaşlıq əlaqələrinin qurulması məqsədi ilə aşağıdakılar barədə razılaşdılar:

**Maddə 1**

Tərəflər aşağıdakı istiqamətlərdə əməkdaşlıq edirlər:

- işaxtaran və işsiz şəxslərin, sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən şəxslərin məşğulluq imkanlarının genişləndirilməsi;
- işaxtaran və işsiz şəxslərin işaxtarışına və özünüməşğulluğuna kömək göstərilməsi;
- əmək bazarının tələblərinə uyğun işsiz və işaxtaran şəxslərin peşəyönümünün, peşə hazırlığının təmin edilməsi, bilik və bacarıqlarının artırılması.

**Maddə 2**

Tərəflər arasında əməkdaşlıq aşağıdakı formalarda həyata keçirilir:

- işaxtaran və işsiz şəxslərin məşğulluq imkanlarının genişləndirilməsi məqsədi ilə ölkənin ayrı-ayrı regionlarında mövcud olan əmək bazarının tələblərinə uyğun aktiv məşğulluq tədbirlərinin təşkili ilə bağlı təkliflərin *Fonibo* tərəfindən Agentliyə təqdim edilməsi;
- *Fonibo* tərəfindən təqdim olunan təkliflərin müzakirə edilməsi məqsədi ilə Agentliyin və *Fonibonun* səlahiyyətli nümayəndələri arasında işgüzar görüşlərin keçirilməsi;
- sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən şəxslər üçün əlavə iş yerləri və sosial müəssisələr yaradılmasına marağın artırılması üçün Agentlik tərəfindən müxtəlif xarakterli həvəsləndirici (təşviqedici) tədbirlərin, o cümlədən proqram və layihələrin həyata keçirilməsi;
- Agentlik tərəfindən aktiv məşğulluq tədbirlərinə cəlb olunan şəxslər barədə məlumatların *Foniboya* təqdim edilməsi;

- Agentlik tərəfindən müvafiq aktiv məşğulluq tədbirlərinə cəlb olunan şəxslərin fəaliyyətinin dəstəklənməsi və inkişaf etdirilməsi məqsədi ilə *Fonibo* tərəfindən maarifləndirmə, təbliğat işlərinin, o cümlədən, əlavə dəstəyin həyata keçirilməsi;

- Agentlik tərəfindən peşə hazırlığına cəlb olunan şəxslərin müvafiq işlə təmin olunmasına Fonibo tərəfindən köməklik göstərilməsi;

- peşə hazırlığına cəlb olunan şəxslərin bilik və bacarıqlarının artırılması məqsədi ilə onların iş yerlərində istehsalat təcrübəsi keçmələri üçün Fonibo tərəfindən zəruri köməkliyin göstərilməsi

**Maddə 3**

Bu Memorandumun icrasının əlaqələndirilməsinə və nəzarət işlərinə cavabdeh qurumlar (şəxslər) aşağıdakılardır:

- Agentlik tərəfindən – Agentliyin Aparatının Beynəlxalq əlaqələr və layihələrlə iş departamenti;
- Fonibo tərəfindən - Marketinq və PR departamenti

**Maddə 4**

Bu Memorandum çərçivəsində Tərəflər arasında yazışmalar yazılı (sənəd mübadiləsi) və/və ya elektron formada (email vasitəsilə) həyata keçirilir.

Bu Memoranduma Tərəflərin qarşılıqlı razılığı ilə onun ayrılmaz tərkib hissəsi olan ayrıca protokollar formasında rəsmiləşdirilən əlavə və dəyişikliklər edilə bilər.

**Maddə 5**

Bu Memorandum imzalandığı gündən qüvvəyə minir və 3 il müddətində qüvvədədir.

Memorandumun ləğv edilməsi belə ləğvetmədən əvvəl ona əsasən başlanılmış layihələrin və ya proqramların həyata keçirilməsinə təsir etmir

Bu Memorandum Bakı şəhərində 11/03/2021 tarixində, hər biri Azərbaycan dilində eyni hüquqi qüvvəyə malik olan iki nüsxədə tərtib edilmiş və imzalanmışdır.

| Dövlət Məşğulluq Agentliyinin İdarə Heyətinin sədri | Fonibo MMC Direktoru |
|---|---|
| M.Y. | M.Y. |
| M.A.Abbasbəyli | N.M.Manafov |